**Təsdiq edirəm:**

Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyanın
"Biznesin müflisləşməsi" İşçi Qrupunun rəhbəri
Azərbaycan Respublikası ədliyyə nazirinin müavini

**Abiddin Hüseynov**

14.03.2025

**Dünya Bankı Qrupunun "Business Ready" hesabatının "Biznesin müflisləşməsi" indikatoru ilə bağlı İntensiv Kommunikasiya Planı**

| Sıra №-si | Görüləcək işlər | İcraçı qurumlar | İşçi qrupu üzrə məsul şəxslər | Hədəf qrupları (benifisiarlar) | Son icra müddəti |
|---|---|---|---|---|---|
| **1.** | **Maarifləndirici materialların hazırlanması və mediada paylaşılması** | | | | |
| 1.1. | "Elektron məhkəmə" informasiya sistemində hüquqi şəxsin və ya fərdi sahibkarın müflis elan edilməsi barədə mövcud olan məlumatların dövlət satınalmalarının vahid internet portalı vasitəsilə əldə edilməsi imkanı üzrə maarifləndirici materialların hazırlanması və mediada paylaşılması | Ədliyyə Nazirliyi<br>Məhkəmə-Hüquq Şurası<br>Mətbuat Xidməti | Qismət Qurbanov<br>Seymur Həmidov<br>Ləman Hüseynzadə | İctimaiyyət | 04.04.2025 |
| 1.2. | Müflisləşmə ilə bağlı işlər üzrə anonimləşdirilmiş məhkəmə qərarlarının Vahid Məhkəmə Portalında ayrıca bölmədə yayımlanması imkanı ilə bağlı videoçarxın hazırlanması və mediada paylaşılması | Ədliyyə Nazirliyi<br>Məhkəmə-Hüquq Şurası<br>Mətbuat Xidməti | Qismət Qurbanov<br>Seymur Həmidov<br>Ləman Hüseynzadə | İctimaiyyət | 07.04.2025 |

| | | | | | |
|---|---|---|---|---|---|
| 1.3. | Müflisləşmə sahəsində mübahisələrə dair hesabat formasının Vahid Məhkəmə Portalında yerləşdirilməsi və avtomatik yenilənməsi imkanı ilə bağlı videoçarxın hazırlanması və mediada paylaşılması | Ədliyyə Nazirliyi<br>Məhkəmə-Hüquq Şurası<br>Mətbuat Xidməti | Qismət Qurbanov<br>Seymur Həmidov<br>Ləman Hüseynzadə | İctimaiyyət | 11.04.2025 |
| 1.4. | "Elektron vəkil" sisteminin "Elektron məhkəmə" informasiya sistemi ilə inteqrasiyası nəticəsində müflisləşmə prosesindən əvvəl və müflisləşmə prosesində olan hüquqi şəxsləri təmsil edən nümayəndələr (vəkillər) üçün istifadəyə verilmiş FİN və VÖEN əsasında müqavilələrin və orderlərin elektron tərtib olunması imkanı ilə bağlı maarifləndirmə materiallarının hazırlanması və mediada paylaşılması | Ədliyyə Nazirliyi<br>Vəkillər Kollegiyası<br>Mətbuat Xidməti | Qismət Qurbanov<br>Nihad Əliyev<br>Ləman Hüseynzadə | İctimaiyyət | 18.04.2025 |
| 1.5. | "Elektron məhkəmə" informasiya sistemində müflisləşmə (iflas) barədə iddia ərizələrinin formalaşdırılması və məhkəməyə göndərilməsi sahəsində elektron xidmətin təşkil edilməsi ilə bağlı videoçarxların hazırlanması və mediada paylaşılması | Ədliyyə Nazirliyi<br>Məhkəmə-Hüquq Şurası<br>Mətbuat Xidməti | Qismət Qurbanov<br>Seymur Həmidov<br>Ləman Hüseynzadə | İctimaiyyət | 21.04.2025 |
| 1.6. | İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin informasiya sistemi ilə "Elektron məhkəmə" informasiya sistemi arasında inteqrasiya nəticəsində elektron kabineti olmayan sahibkara iddia ərizəsi barədə bildirişin sahibkarların Dövlət Vergi Xidmətinin informasiya sistemindəki elektron kabinetlərinə onlayn qaydada göndərilməsi imkanı ilə bağlı infoqrafiklərin hazırlanması və mediada paylaşılması | Ədliyyə Nazirliyi<br>Məhkəmə-Hüquq Şurası<br>Mətbuat Xidməti | Qismət Qurbanov<br>Seymur Həmidov<br>Ləman Hüseynzadə | İctimaiyyət | 25.04.2025 |
| **2.** | **Aidiyyəti qurumların müvafiq sahə üzrə əməkdaşları və müstəqil ekspertlərlə iş sahəsində** | | | | |
| 2.1. | Ekspertlərin istifadəsi üçün müvafiq məlumatların, arayışların, cədvəllərin, infoqrafikaların hazırlanaraq Komissiyanın Katibliyi ilə razılaşdırdıqdan sonra onlara təqdim olunması | Ədliyyə Nazirliyi<br>İqtisadiyyat Nazirliyi<br>Mərkəzi Bank<br>Vəkillər Kollegiyası | Bağdagül Cəfərova<br>Teymur Əhmədov<br>Vüqar Qurbanov<br>Anar Muxtarov<br>Nihad Əliyev | Ekspertlər | 08.05.2025 |

| | | | | | |
|---|---|---|---|---|---|
| 2.2. | Aidiyyəti qurumların müvafiq sahə üzrə əməkdaşları və müstəqil ekspertlər üçün seminar və treninqlərin keçirilməsi | Ədliyyə Nazirliyi<br>İqtisadiyyat Nazirliyi<br>(o cümlədən Dövlət Vergi Xidməti) | Bağdagül Cəfərova<br>Teymur Əhmədov<br>Vüqar Qurbanov<br>Anar Muxtarov<br>Nihad Əliyev | Ekspertlər | 15.05.2025 |
| 2.3. | Seminar və treninqlərin nəticələrinin qiymətləndirilməsi | Ədliyyə Nazirliyi | İşçi qrup üzvləri | Ekspertlər | Təlim bitdikdən sonra |
| 2.4. | Mediada müvafiq sahə üzrə müstəqil ekspert qismində çıxış və müsahibələr verilməsi, məqalələr hazırlanması məqsədilə müvafiq müstəqil ekspertlərin müəyyən edilməsi | Ədliyyə Nazirliyi | İşçi qrup üzvləri | Ekspertlər | 26.05.2025 |
| **3.** | **Aparıcı konsaltinq şirkətləri, beynəlxalq və yerli qeyri-hökumət təşkilatları ilə iş sahəsində** | | | | |
| 3.1. | İndikator üzrə hazırlanmış qanunvericiliyin təhlili sənədinin aparıcı konsaltinq şirkətləri, beynəlxalq və yerli qeyri-hökumət təşkilatları ilə paylaşılması, onlara yeniliklərlə bağlı izahat xarakterli materialların verilməsi | Ədliyyə Nazirliyi | İşçi qrup üzvləri | Fəaliyyət göstərən konsaltinq şirkətləri və qeyri-hökumət təşkilatları | 2-ci rübdən başlayaraq mütəmadi |
| 3.2. | "Business Ready" hesabatının "Biznesin müflisləşməsi" indikatoru ilə əhatə olunan hüquqi şəxslərlə dəyirmi masaların təşkil olunması, rəy və təkliflərinin öyrənilməsi və görülmüş işlər barədə onların məlumatlandırılması | Ədliyyə Nazirliyi | İşçi qrup üzvləri | İndikatorla əhatə olunan hüquqi şəxslər | 2-ci rübdən başlayaraq mütəmadi |
| **4.** | **Biznes assosiasiyaları və sahibkarlıq subyektləri ilə iş sahəsində** | | | | |
| 4.1. | Vəkillər Kollegiyası ilə birgə vəkillər üçün müflisləşmə və sağlamlaşdırma üzrə maarifləndirmə tədbirinin keçirilməsi | Ədliyyə Nazirliyi<br>Vəkillər Kollegiyası | İşçi qrup üzvləri | Vəkillər | Sentyabr,2025 |

| | | | | | |
|---|---|---|---|---|---|
| 4.2. | Azərbaycan Respublikası Sahibkar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının iştirakı ilə müvafiq sahədə görülmüş işlər barədə maarifləndirici görüşün keçirilməsi | Ədliyyə Nazirliyi | İşçi qrup üzvləri | Milli konfederasiya üzvləri | Oktyabr, 2025 |
| 4.3. | Azərbaycanda fəaliyyət göstərən aparıcı hüquq/konsaltinq şirkətlərinin nümayəndələri ilə müflisləşmə və sağlamlaşdırma məsələlərinin müzakirəsi ilə bağlı görüşlərin keçirilməsi | Ədliyyə Nazirliyi | İşçi qrup üzvləri | Konsaltinq şirkətləri | 2-ci rübdən başlayaraq rübdə 1 dəfə |
| 4.4. | İşçi qrupun fəaliyyəti çərçivəsində görülmüş işlər barədə sahibkarlıq subyektlərinin məlumatlılığının təmin edilməsi, onlarla görüşlərin keçirilməsi | Ədliyyə Nazirliyi | İşçi qrup üzvləri | Sahibkarlıq subyektləri | 2-ci rübdən başlayaraq rübdə 1 dəfə |
| **5.** | **Media qurumları ilə iş sahəsində** | | | | |
| 5.1. | Aparıcı media nümayəndələri ilə görüşlərin keçirilməsi, onlara müsahibələrin verilməsi | İşçi qrup | Ekspertlər və işçi qrup üzvləri | Media və ictimaiyyət | 01.11.2025-ci il tarixinədək (ən azı 5 müsahibə) |
| 5.2. | Təbliğat işinin aparılması üçün Medianın İnkişafı Agentliyi ilə birlikdə media kanallarının müəyyən edilməsi, mütəmadi olaraq işçi qrupu tərəfindən görülmüş işlərə dair məlumatların, müsahibələrin, video-çarxların paylaşılması | Medianın İnkişafı Agentliyi<br>İşçi qrup<br>Mətbuat xidməti | İşçi qrup üzvləri<br>Ləman Hüseynzadə | Media və ictimaiyyət | 2-ci rübdən başlayaraq rübdə 1 dəfə |
| 5.3. | Biznes mühitinin yaxşılaşdırılması və biznesin müflisləşməsi sahəsində aparılmış islahatlar, görülmüş işlər barədə informativ məlumatların hazırlanaraq qurumun öz sosial media hesablarında və səhifəsində paylaşılması | İşçi qrup<br>Mətbuat xidməti<br>Qanunvericilik baş idarəsi | İşçi qrup üzvləri<br>Ləman Hüseynzadə<br>Fərid Yaqublu | İctimaiyyət | 2-ci yarımildən başlayaraq mütəmadi |
| 5.4. | Aparıcı konsaltinq şirkətləri, beynəlxalq və yerli qeyri-hökumət təşkilatları ilə keçirilmiş görüşlərin mediada işıqlandırılması | Mətbuat xidməti | Ləman Hüseynzadə | Media | Tədbirlərin keçirildiyi gün |
| 5.5. | Biznes assosiasiyaları və sahibkarlıq subyektləri ilə keçirilmiş görüşlərin mediada işıqlandırılması | Mətbuat xidməti | Ləman Hüseynzadə | Media | Tədbirlərin keçirildiyi gün |